BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 ***Humanitar elmlər seriyası*** ***2015***

UOT 94 (479. 24)

ŞİMALİ AZƏRBAYCANDA SAHİBKAR KƏNDLİLƏRİNİN "MÜVƏQQƏTİ MÜKƏLLƏFİYYƏTLİ" VƏZİYYƏTİ MƏSƏLƏSİ HAQQINDA

F.E.BAXŞƏLİYEV
Bakı Dövlət Universiteti
baxsaliebfazil@yahoo.com

1870-ci il 14 may kəndli islahatı çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda da kəndli - sahibkar münasibətlərində yeni mərhələnin başlanması demək olsa da, kəndlilər nəzərdə tutulduğu kimi, öz pay torpaqlarının sahiblərinə çevrilmədilər. Satınalma qiymətlərinin bahalığı, kəndlinin ödənc əməliyyatına keçməsi üçün ona dövlət tərəfindən borc verilməməsi və onun bu işə məcbur edilməməsi və s. bəhanələr hesabına Şimali Azərbaycan sahibkar kəndlisi yenə də əvvəlki kimi öz ağalarından və sahibkarlardan asılı qalmalı oldu. Bu isə o demək idi ki, kəndlilər yenə də öz ağalarının xeyrinə əvvəlki mükəlləfiyyətlərini yerinə yetirməkdə davam etməli və ya rəsmi orqanların ifadəsilə desək, "müvəqqəti mükəlləfiyyətli" vəziyyətdə qalmalı idilər.

Açar sözlər: kapitalist, inkişaf, kənd, şimal

1870-ci il 14 may kəndli islahatı çarizmin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda da kəndli - sahibkar münasibətlərində yeni mərhələnin başlanması demək olsa da, kəndlilər nəzərdə tutulduğu kimi, öz pay torpaqlarının sahiblərinə çevrilmədilər. Rusiyanın Avropa quberniyalarına nisbətən burada torpağın satınalma qiymətlərinin bahalığı, kəndlinin ödənc əməliyyatına keçməsi üçün ona dövlət tərəfindən borc verilməməsi və onun bu işə məcbur edilməməsi, ən nəhayət və ən əsası isə hökumətin yerli ali zümrənin maraqlarına zərər vurmamaq niyyəti, digər səbəblər və bəhanələr hesabına Şimali Azərbaycan sahibkar kəndlisi yenə də əvvəlki kimi (1912-ci ilə qədər) öz ağalarından və sahibkarlardan asılı qalmalı oldu (2, 30). Bu isə o demək idi ki, kəndlilər yenə də öz ağalarının xeyrinə əvvəlki mükəlləfiyyətlərini yerinə yetirməkdə davam etməli və ya rəsmi orqanların ifadəsilə desək, "müvəqqəti mükəlləfiyyətli" vəziyyətdə qalmalı idilər. Azərbaycan sahibkar kəndinin bu dövrü adı ilə müəyyən əkslik təşkil edən «müvəqqəti mükəlləfiyyətli vəziyyəti» (faktik olaraq 42 il – F.B.) adını almış oldu. Vəziyyətin bu cür davam etməsində çar hökuməti məmurlarının diyarı, o cümlədən Şimali Azərbaycanı feodal-patriarxal münasibətlərin möhkəm olduğu geridə qalmış yer hesab et-

mələri haqqında təsəvvürləri də az rol oynamamışdı. Bu münasibət hətta uzun müddət XX əsr Azərbaycan sovet tarixşünaslığında təkzib edilməmiş qalmışdı (12, 10). XIX əsrin sonu - XX əsrin əvvəlində yaranmış yeni şərait çarizmin Cənubi Qafqazda keçirdiyi islahatlar və sosial-iqtisadi dəyişikliklər Şimali Azərbaycanda, o cümlədən sahibkar kəndində kəndli-sahibkar münasibətlərindəki qeyri-müəyyənliyi aradan qaldırmağı tələb edirdi.

Cənubi Qafqaz quberniyalarında 1870-ci il 14 may Kəndli islahatının elan edilməsi və onun həyata keçirilməsi prosesi gözlənildiyi kimi yerlərdə, o cümlədən Şimali Azərbaycanda kəndli-sahibkar münasibətlərində tam müəyyənlik və sabitlik yarada bilmədi. Rəsmi orqanların və yüksək vəzifəli şəxslərin müxtəlif bəyanatlarında kəndlilərin mülkədarlardan asılılığının, yalnız istifadəsində olduğu pay torpağının dəyərini öz ağasına ödəyənə qədər davam edəcəyini və yalnız həmin vaxta qədər müvəqqəti mükəlləfiyyətli vəziyyətdə qalacağı bəyan edilsə də, bu məsələ ilə əlaqədar yaranmış qeyri-müəyyənlik çarın 1912-ci il 20 dekabr aqrar qanununu imzalayana qədər davam etdi (1, 3).

XX əsrin əvvəllərində çarizmin Cənubi Qafqazda apardığı aqrar siyasətdəki yeni cəhətlərin məzmununa islahatdan sonrakı dövrdə Şimali Azərbaycan sahibkar kəndində əmtəə-pul münasibətlərinin güclənməsi, mülkədar torpaq sahibliyində, ondan istifadə edilməsində müəyyən dəyişikliklərin baş verməsi, sözsüz ki, öz təsirini göstərmişdi. Lakin hələlik baş verməkdə olan yeni iqtisadi dəyişiklikləri qəbul etməyən mülkədarlar və digər sahibkarlar kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətdə qalmasının tərəfdarı kimi çıxış edib, bu məsələdə hər hansı dəyişiklik edilməsinin qəti əleyhinə idilər (10, 87).

Beləliklə, təxminən, 40 ilə yaxın bir müddətdə Şimali Azərbaycan sahibkar kəndində iki tərəfin münasibətlərində – bəy və ağalarla rəsmən müvəqqəti mükəlləfiyyətli adlandırılmış asılı kəndlilər arasında başa çatmasını birincilərə nisbətən ikinci tərəfin çox arzuladığı sükut və intizar dövrü davam etməkdə idi.

XIX əsrin 90-cı illərindən başlayaraq Rusiya imperiyasının Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi və digər əlaqədar orqanlarla Qafqaz diyarı rəhbərliyi arasında məsələnin həlli yollarının axtarılması üçün uzunmüddətli yazışmalar dövrü başladı və bu yazışmalar intensivləşdi. Cənubi Qafqazda bu istiqamətdə ilk olaraq Tiflis quberniya kəndli məsələləri üzrə komissiyası 1894-cü il yanvarın 1-də quberniya ərazisində müvəqqəti mükəlləfiyyətli münasibətlərinin tam dayandırılması üçün layihə də hazırlamışdı (4, 59).

Quberniya kəndli məsələləri komissiyasının hazırladığı bu layihə bütövlükdə bəzi məhdud cəhətlərinə - texniki hesablamalar baxımından yetkin olmamasına, tam hazırlanmaması və digər məhdudluqlarına - baxmayaraq, hər halda, Cənubi Qafqazda kəndli - asılı münasibətlərinin tam ləğvi yolunda ilk real addım kimi qiymətləndirilməlidir.

Lakin layihə Qafqaz diyarı baş mülki rəisi yanındakı Şurada müzakirələrdə vaxtı çatmamış hesab edilərək rədd olundu. Qafqazın baş mülki rəisi general – adyutant Şeremetyevin 1895-ci il yanvarın 20-də Rusiya imperiyası Daxili İşlər Nazirliyinə göndərdiyi məktubdan aydın olur ki, guya məsələnin

bu formada həlli ali zümrənin mənafelərinə zərbə vurmuş olar, guya ki, regiondakı sahibkar kəndliləri öz pay torpaqlarının satın alınmasına maraq göstərmirlər (11, 112).

Lakin XX əsrin əvvəllərində dəyişilmiş siyasi vəziyyət hökumət strukturlarını Cənubi Qafqazda kəndli problemlərinə yenidən baxmağa vadar edirdi. Məsələnin həlli ətrafında çoxsaylı yazışmalarda ən çox fəallıq göstərən Daxili İşlər Nazirliyinin sərəncam və bildirişlərində kəndlilərin mükəlləfiyyətli münasibətlərinin ləğvi, kəndlilərin natural vergidən pul vergisinə keçirilməsi və pay torpaqların məcburi şəkildə satın alınması haqqında təklif daha çox səslənirdi.

XX əsrin ilk illərində formalaşan belə təkliflərin ümumiləşdirilməsi əsasında 1904-cü ilin iyununda Qafqaz diyarının baş mülki rəisi yanında Şurada məsələ ilə əlaqədar yeni müzakirələr başlandı (5, 224; 7, 348).

Şuranın işləyib hazırladığı və qəbul etdiyi layihənin əsasında 1864-cü il 13-oktyabr, 1865-ci il 13 oktyabr, 1870-ci il 14 may, 1877-ci il 10 yanvar və 3 sentyabr, 1893-cü il 15 mart tarixli qanunlarındakı kəndli pay torpaqlarının məcburi satın alınmasını nəzərdə tutan müddəalar dayanırdı (11, 123).

Layihəyə əsasən Cənubi Qafqaz quberniyalarında müvəqqəti mükəlləfiyyətli vəziyyətdə olan sahibkar kəndliləri qanun qüvvəyə mindikdən sonra 2 il ərzində dövlətin etdiyi maliyyə yardımı ilə öz pay torpaqlarını məcburi şəkildə satın almalı idilər (11, 124).

Layihədə ödənc üçün dövlət tərəfindən veriləcək borc məbləğinin hesablanma qaydaları da göstərilirdi. Tiflis quberniyasında suvarılan torpaqların 1 desyatini üçün 80 rubldan çox olmayaraq, dəmyə yerlər üçün isə 26 rubldan az olmayaraq, Yelizavetpol və Bakı quberniyalarında, müvafiq olaraq, 45 rubla qədər və 6 rubldan az olmayaraq, İrəvan quberniyasında isə 60 rubla qədər və 8 rubldan az olmayaraq dövlət kreditinin verilməsi nəzərdə tutulurdu (11, 126).

Beləliklə, uzunmüddətli müzakirələrin yekunu kimi yaranan və sonralar 1905-ci ildə bərpa edilmiş Qafqaz Canişini vəzifəsinə təyin edilmiş qraf Voronsov – Daşkovun layihəsi adını alan sənədin, habelə 1912-ci il 20 dekabr çar fərmanının əsas məzmununu müəyyən edən sözü gedən layihə Qafqazın mülki idarəsinin baş rəisi knyaz Qolisın tərəfindən bəyənilərək Daxili İşlər Nazirliyinə göndərildi. Qafqaz diyarı baş mülki rəisi və Daxili İşlər Nazirliyi arasında gedən yazışmalarda bu layihənin reallaşmasının vacibliyi dönə - dönə təkrar edilirdi (11,140).

Beləliklə, bəhs edilənlər, həqiqətən, XX əsrin əvvələrində çarizmin Cənubi Qafqazdakı aqrar - müstəmləkə siyasətində əsaslı dəyişikliklər etmək məcburiyyətində qaldığını göstərirdi və indi əvvəlki illərdən fərqli olaraq məsələyə baxışda, münasibətdə mərkəzi və digər idarəçilik orqanlarının mövqeləri xeyli dərəcədə üst-üstə düşürdü.

Beləliklə, bəhs edilən dövrdə kəndli – sahibkar münasibətlərinin get-gedə kəskinləşməsi və bəzən bu münasibətlərin, hətta açıq qarşıdurma və silahlı toqquşma dərəcəsinə çatması hökuməti vadar edirdi ki, məsələni mülkədarların mənafelərinə ciddi zərər vurmadan ən qısa vaxtda həll etsin.

XIX əsrin son iki on ilində Cənubi Qafqazda kəndli məsələsinin qəti

şəkildə həll edilməsi baş tutmamış, bu sahədə yalnız bəzi addımlar atılmış, vəziyyət ən yaxşı halda, hakimiyyət orqanlarının bir neçə bəyannamə xarakterli sənədlər qəbul edilməsi ilə yadda qalmışdır.

XX əsrin elə ilk illərindən bu sahədə vəziyyətin dəyişməsinə yönəlmiş bəzi addımlar atılır. 1902-ci ildə Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda sahibkar kəndlilərinin müvəqqəti mükəlləfiyyətli və asılı münasibətlərin ləğvi məsələləri ilə məşğul olmaq üçün kəndli məsələləri komitələri yaradılsa da (8, 126), komitələrin fəaliyyətinin ilk dövrünün əsas yekunu torpaq sahibləri ilə kəndlilər arasındakı münasibətlərin kəskinləşdiyini, müvəqqəti mükəlləfiyyətli – asılı münasibətlərin ləğvinin zəruriliyini etiraf etməsi oldu. Əslində bu, müstəmləkə idarəçilik orqanları üçün yenilik deyildi. Buna görə də bəzi çar məmurları sahibkar kəndlilərin hələ bundan xeyli müddət sonra da kəndlilərin öz pay torpaqlarını satın ala bilməyəcəklərini yaxşı başa düşərək, vəziyyətdə dəyişiklik yaratmaq üçün dövlətin maliyyə yardımına ehtiyac olduğunu bildirirdilər (9, 5).

Daxili İşlər Nazirinin Ədliyyə Nazirliyinə göndərdiyi 1905-ci il 2 mart tarixli məktubunda tövsiyə edilirdi ki, Qafqazın baş mülki rəisinin hazırladığı layihəyə münasibət bildirilsin. Bu zəruriyyət onunla əlaqələndirilirdi ki, indi kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin dayandırılması və onların öz pay torpaqlarını satın almasından sonra həm sahibkar, həm də dövlət kəndlilərinin vəziyyəti xeyli yaxşılaşacaq, çünki hal-hazırda kəndli öz gəlirlərinin təxminən 25%-ə qədərini müxtəlif vergilər formasında öz ağalarına ödəməli olur (4, 78). Lakin real vəziyyət tam başqa idi. Çünki kəndlilərin ödədiyi müxtəlif vergilərdən sonra adı çəkilən məhsulun heç 25%-i də istehsalçının özünə qalmırdı.

Beləliklə, XIX əsrin son iki onilliyində, xüsusilə yeni əsrin ilk illərində Cənubi Qafqazda kəndli-sahibkar münasibətləri probleminin həlli üzrə görülmüş işlər sözü gedən layihə əsas götürülməklə müvafiq qanun qəbul edilməsi ilə başa çatmağa çox yaxın idi. Lakin 1905-ci ilin əvvəllərində Qafqazda canişinliyin bərpa edilməsi ilə təbii olaraq məsələnin həllinin başa çatmasına müəyyən ara verdi.

Lakin 1905-ci il hadisələrinin başlaması ilə əlaqədar imperiyada yaranan yeni siyasi ab-hava çarizmi ölkə (o cümlədən Cənubi Qafqazda da), əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilərin inqilabi hərəkatdan kənarlaşdırılmasına kömək edəcək xüsusi tədbirlər planına diyarda aqrar islahatın sürətləndirilməsi, deməli, feodal-asılı münasibətlərin, kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin ləğv edilməsinə nail olmaq məqsədi də daxil idi.

Məsələnin həlli ilə bağlı hazırlanmış bir neçə layihə müxtəlif vaxtlarda meydana gəlib, uzunmüddətli müzakirələr prosesindən keçsələr də, layihənin qanuna çevrilməsi imperiyada, o cümlədən Cənubi Qafqaz diyarında yalnız 1905-ci il hadisələrinin başlanmasından sonra xüsusilə sürətləndi (10,102).

Cənubi Qafqazdakı yeni mürəkkəb siyasi vəziyyət bərpa olunmuş və Cənubi Qafqaz diyarının baş mülki rəisini əvəz edən Qafqaz Canişini vəzifəsinə təyin edilmiş Voronsov-Daşkovun bölgəyə gəlişindən bir az keçmiş bir daha etiraf edildi. Demək lazımdır ki, yeni təyin olunmuş canişin qraf Vo-

ronsov-Daşkov da yerlərdəki vəziyyətlə tanış olduqdan sonra müvəqqəti mükəlləfiyyətli vəziyyətin ən yaxın vaxtlarda dayandırılmasının vacibliyi fikri ilə razılaşmalı olmuşdu.

Məhz Canişinin məsələ ətrafında yaranmış gərginliyi aradan qaldırmaq sahəsindəki fəaliyyətinin nəticəsi olaraq, 1905-ci il noyabrın 22-də «Qafqazda kəndli işinin nizama salınması haqqında qeydlər» adlanan qanun layihəsi yarandı (4, 21-35; 7, 1-36).

Sonradan Canişinin əlavələr və təkliflər əsasında hazırlanmış ikinci layihəsində bəzi müddəalar dəyişdirilmişdi. Çünki Cənubi Qafqaz quberniyalarında kəndlilərə mülkədar torpaqları hesabına pay torpaqlarının verilməsi müddəasını həm Canişinin özü, həm də Daxili İşlər Nazirliyi layihə hazırlanmazdan xeyli əvvəl hələlik qeyri-mümkün hesab etmişdilər.

Layihələr arasında pay torpağının dəyərinin ödənilməsi yolları barədə belə fərqli yanaşmanın yaranmasının səbəbi layihələrin hazırlanma vaxtı və şəraiti idi. Əgər layihənin birinci variantı 1905-ci il hadisələrinin başladığı bir vaxtda hakimiyyət orqanlarının yerlərdəki həyəcanlı vəziyyətlə əlaqədar tələş keçirdiyi bir şəraitdə tərtib edilmişdirsə, ikinci layihənin birinciyə nisbətən xeyli mülayim olması və zadəganların maraqlarının əsas götürülməsi artıq həmin vaxt imperiyadakı siyasi vəziyyətin təhlükəli hesab edilməməsi ilə izah olunurdu.

Bütün hazırlıq və təşkilati işlər görüldükdən sonra layihə 1908-ci il 19 dekabrda Dövlət Dumasının müzakirəsinə göndərildi. İlkin olaraq bu qanunun adının belə olması nəzərdə tutulurdu: «Cənubi Qafqaz diyarında kəndlilərin mülkədarlara müvəqqəti mükələfiyyətli münasibətlərinin ləğv edilməsi haqqında» (11, 188).

Sənəddə kəndlilərin öz pay torpaqlarının sahibinə çevrilməsi əvəzində mülkədarlara və digər sahibkarlara ödənc ödəmək məqsədilə Dövlət Kəndli Bankının 1906-cı il yanvarın 1-dən açılması planlaşdırılan Cənubi Qafqaz şöbəsindən borc götürmələri, torpaqsız və aztorpaqlı kəndlilərə boş xəzinə torpaqlarından və meşə sahələrindən istifadə etmək ixtiyarı verilməsi, kəndlilərin servitutlardan yararlanmasına icazə verilməsi, hətta Cənubi Qafqaz quberniyaları üzrə kəndlilərin mülkədarlara ödəyəcəyi ödəncin hesablanma qaydaları və prinsipləri də təklif olunmuşdu (6, 31).

1911-ci il martın 17-də Nazirlər Kabinetində təsdiq edilmiş qanun layihəsi həmin ilin 24 sentyabrında Dövlət Dumasına təqdim edildi. Layihənin 9-cu maddəsinin o qədər də çox çəkməyən müzakirələrdə müəyyən mübahisə doğurmasına baxmayaraq (bataqlıq və digər istifadəyə yararlı olmayan sahələrin kəndlilərə pulsuz verilməsi haqqında), layihə səs çoxluğu ilə qəbul edildi (1, 106).

1912-ci il dekabrın 20-də çar II Nikolay tərəfindən imzalanaraq qüvvəyə mindi (3, 115-116). Qanunu həyata keçirmək üçün hazırlanmış ayrıca təlimat və müxtəlif növ əkin sahələrinin bir desyatini üçün qiymət cədvəli 1912-ci il dekabrın 25-də hökumətin qanun və sərəncamları külliyatının xüsusi 260 saylı buraxılışında nəşr edildi (1, 63).

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Dövlət Arxivi (ADA)., f. 278, siy.1, iş 71

2.XX əsr Azərbaycan tarixi. II c. Prof. T.T.Vəliyevin ümumi redaktorluğu ilə. Bakı: Təhsil, 2009, 560 s.
3.Orucov H.Ə. Stolıpin irticası dövründə Azərbaycanda çarizmin aqrar siyasəti haqqında // S.M.Kirov adına ADU-nun Elmi Əsərərləri. Sosial Elmlər Seriyası. №1, 1958, s.105-113
4.Авалиани С.Л. Крестьянский вопрос в Закавказье. т. IV ., Издательство Тбилисского Государственного Университета. Тифлис, 1920, 235 с.
5.Богданова Н.Г. //Аграрные отношения в Азербайджане в 1870-1917 гг. // Исторические записки. 1941 г., №.12, с. 200-227
6.ГИА РФ в Санкт-Петербурге., ф.1291, оп.66, д.37
7.Гугушвили П.В. Аграрные отношения в Закавказье на рубеже XIX-XX вв. Тбилиси: Академия Наук Грузинской ССР, 1955, 698 с.
8.Исмаилов М.А.Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм, 1982, 165 с.
9.Обзор Бакинской губернии за 1903 года. Типография губернского
10.Сегаль И.Л.Крестьянское землевладение в Закавказье. Типография К.П.Козловского. Тифлис, 1912, 162 с.
11.Семин О. Великая годовщина: Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказ. Киев: Вся Россия, 1911, 166 с.
12.Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX-начале XX веков. Баку: Элм, 2002, 526 с.

ВРЕМЕННООБЯЗАННЫЕ ОТНОШЕНИЯ ЧАСТНОВЛАДЕЛЬЧЕСКИХ КРЕСТЬЯНЕ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ

Ф.Э.БАХШАЛИЕВ

РЕЗЮМЕ

Последние десятилетия XIX века в Северном Азербайджане запоминалось с развитием новых капиталистических отношений в экономике, в том числе в частновладельческие деревне Северного Азербайджана. Крестьянская реформа от 14 мая 1870 года официально потвердила право получения крестьянами своих надельных земель. Но из-за не хватка денег этот процесс продлился еще на 42 года, т.э. до принятия аграрного закона от 20 декабря 1912 года. Именно этот, почти сороколетний период в документах и законах того времени получил название «Временнообязанные отношения частновладельческих крестьяне».

Ключевые слова: капиталист, развитие, деревня, Северный

TEMPORARY RELATIONS OF PRIVATELY OWNED VILLAGERS IN NORTHERN AZERBAIJAN

F.E.BAKHSHALIYEV

SUMMARY

During the last decade of the XIX century the Northern Azerbaijan was remembered with the development of new capitalist relations in the economy, including the villages of Northern Azerbaijan. The peasant reform of May 14, 1870 formally confirmed the peasants' right to receive the allotment to their lands. However, due to the lack of money this process continued for another 42 years, until E. T. the agrarian act of December 20, 1912. This almost forty year period, in the documents and laws of that time was called as "Temporary relations of owner peasants".

Key words: capitalist, development, village, Nothern Azerbaijan